# AİDA XANIMIN SEÇİLMİŞ FİKİRLƏRİ

Təbiət kimi insan da gözəlliklə dolub daşır.

***

Şair üçün təbiət gözəllik və ilham mənbəyi, əbədi və hər şeyi əhatə edən həqiqətin ifadəçisidir.

***

Dünyanın dərki, əslində qəlbin dərinliklərindəki gizli qatların oyanışı sayəsində mümkün olur.

***

Məhəbbət və gözəllik elə mənəvi işıqdır ki, qəlbi nurlandırır.

***

Gündəlik qayğı ilə yaşayan insanlar çox zaman gözəlliyin yanından ötüb keçirlər, şairin borcu onların diqqətini gözəlliyə yönəltməkdir.

***

Xeyirxahlıq zahiri mərasimlərə riayət etməkdən yüksəkdə durur.

***

Şair missiyası – görücü həqiqət carçısı və peyğəmbər missiyasıdır.

***

İnsanın etdiyi xeyirxahlıq zahiri mərasimlərə riayət etməkdən yüksəkdə durur və buna görə onu mükafatlandıran Allah üçün daha əziz, daha istənilləndir.

***

Romantiklər dünyanı ilhamla, yaradıcı şəkildə tərənnüm edir, hadisə və predmetlərin üzərindən adilik pərdəsini götürərək, onların arxasındakı gözəlliyi aşkara çıxarırlar.

***

Romantiklərdə gözəllik və məhəbbət şairin ürəyini və təxəyyülünü işıqlandıran mənəviyyat nurudur.

***

Gözəllik adlı-sanlı və zəngin insanların imtiyazı deyil, o, bütün insanlığın müqəddəsmülkiyyətidir.

***

Romantik şair ağlı intuisiya ilə, hisslə birləşdirir,... dünyanı ilhamla, “bədii şəkildə” mənimsəyir.

***

Qərblə Şərq arasında uçurum olması fikrinin geniş yayıldığı bir şəraitdə tərbiyə almış və yetişmiş ər-Reyhani eyni zamanda, özünün həm Şərqə, həm də Qərbəmənsubluğunu hiss edirdi.

***

Tənqidçinin vəzifəsi zövqü inkişaf etdirməkdir. Bununla da əsl tənqidçi cəmiyyətin tərbiyəçisi və müəllimi olur.

***

Nüaymənin bütün hekayələri ərəb gerçəkliyinin səciyyəvi xüsusiyyətlərini əks etdirir. Onun novellaları yalnız süjet və məzmununa görə deyil, həm də öz ruhuna görə millidir.